# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/4** **23 yanvar 2017-ci il**

**“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017 – 2019-cu illər üçün Milli Fəaliyyət Planı”nda Azərbaycan Respublikasının Auditorlar Palatasına icrasının təmin edilməsi tövsiyə olunan işlərin həyata keçirilməsi istiqamətində Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.1-ci və 3.9.2-ci bəndlərinin icrası barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.1-ci və 3.9.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.1-ci “Auditorlar Palatasında auditor xidməti sahəsində PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrasına məsul şəxslərin təyin edilməsi” bəndinə uyğun olaraq Auditorlar Palatasında auditor xidməti sahəsində PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrası üzrə məsul şəxslər Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi Maarif Abbasov və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov təyin edilsin.
2. Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.2-ci “Auditorlar Palatasının tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmənin müəyyən edilməsi” bəndinə uyğun olaraq Auditorlar Palatasının tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarətin həyata keçirilməsi Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə tapşırılsın.
3. Auditorlar Palatasının struktur bölmələrin rəhbərlərinə (Q.Bayramov, N.Talıbov, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, R.Cəfərli, M.Hüseynova) və Auditorlar Palatasının Şurası yanında müvafiq komitələrin rəhbərlərinə tapşırılsın ki, Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.9.1 - 3.9.14-cü bəndlərində nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.
4. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**